أحداث فوق الأرض الجديدة

# YENİ YERÜSTÜ HADİSƏLƏR


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

*Dünyanın bər-bəzəyi nə qədər çox və rəngarəngdir*

*Gözəl rəngləri ilə necə də göz oxşayır*

Amma mömin onun yox olacağına və qiyamətin gələcəyinə əmin olduğu üçün ona aldanmaz.

Qiyamət gününə iman yaxşı işlər görməyə həvəsləndirir və pis işlərdən çəkindirir.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿ذَٰلِكَ يُوعَظُ بِهِۦ مَن كَانَ مِنكُمۡ يُؤۡمِنُ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ﴾ [البَقَرَة : ٢٣٢]

"Bu sizlərdən Allaha və Axirət gününə iman gətirənlərə verilən bir öyüd-nəsihətdir." [1]

Son hadisələrdən bəziləri bunlardır:

- Qiyamət günü insanlar qəbirlərindən çıxandan sonra baş verəcək böyük zəlzələ.

Bəzi alimlər bu zəlzələnin bu dünyada yəni Qiyamətdən dərhal əvvəl olacağı deyib.[2]

---

[1] əl-Bəqərə surəsi, 232-ci ayə
[2] Təfsir İbn Kəsir 5/389-390

- Dağlar yerindən qopub quma çevriləcək. Sonra didilmiş yun kimi olacaq. O, toz kimi parçalanacaq. Sonra külək onu sovuracaq.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَبُسَّتِ ٱلْجِبَالُ بَسًّا ۝٥ فَكَانَتْ هَبَآءً مُّنۢبَثًّا ۝٦﴾ [الوَاقِعَة : ٥ - ٦]

"Dağlar parça-parça olub ovxalandığı və (ətrafa) səpələnmiş toz-torpağa döndüyü zaman.[3] " [4]

- Göy yarılacaq, qapılara çevriləcək və mələklər oradan enəcək. Göy zəif və kövrək olacaq. Qaynayan yağ kimi qırmızıya çevriləcək.

Sonra Allah ﷻ onu bükəcək.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿يَوْمَ نَطْوِى ٱلسَّمَآءَ كَطَىِّ ٱلسِّجِلِّ لِلْكُتُبِ﴾ [الأَنبِيَاء : ١٠٤]

"O gün göyü yazılı səhifələrin büküldüyü kimi bükəcəyik." [5]

İbn Abbas (Allah ondan razı olsun) buyurur:

"Bir kitabın səhifəsi kimi büküləcək" [6]

---

[3] əl-Vaqiə surəsi, 6-cı ayə
[4] Advaul-Bəyən 3/282
[5] əl-Ənbiya surəsi, 104-cü ayə
[6] Təfsir ət-Tabari 16/424

- O gün yerlər başqa bir yer ilə əvəz olunacaq.

Peyğəmbər ﷺ buyurub:

"Qiyamət günü yer üzü bir çörək kimi olacaq. Sizdən biriniz səfərdə çörəyini əlində çevirdiyi kimi Uca Allah da onu əli ilə Cənnət əhlinə mükafat olaraq çevirəcək." [7]

- Günəşin işığı gedəcək.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿إِذَا ٱلشَّمۡسُ كُوِّرَتۡ ۝١﴾ [التَّكوير : ١]

"Günəş sarınacağı zaman." [8]

İbn Abbar (Allah ondan razı olsun) buyurub:

"Yəni zülmət olacaq" [9]

Peyğəmbər ﷺ buyurub:

"Qiyamət günü günəş və ay bükülmüş şəkildə olacaq." [10]

- İnsanlar əməllərinə görə hesabata çəkiləcəklər.

---

[7] Buxar 6520, Muslim 2792
[8] ət-Təkvir surəsi, 1-ci ayə
[9] Təfsir İbn Kəsir 8/328
[10] Buxari 3200

Ən asan hesabat, Allahın ﷻ möminin dəftərinə baxıb onun günahlarından keçməsi olacaq. Kim sorğu sual olunacaqsa, ona mütləq işgəncə verilməlidir. Hədisdə gəldiyi kimi. [11]

- Əməllər mütləq mizana qoyulacaq

Çalış ki, tərəzinin savablar gözünü saleh əməllər və gözəl əxlaqla ağırlaşdırasan.

Peyğəmbər ﷺ buyurub:

"Qiyamət günü möminin tərəzisində gözəl əxlaqdan daha ağır bir əməl olmayacaq." [12]

- Sonra Cənnət əhli Cənnətdə, Cəhənnəm əhli isə Cəhənnəmdə yerləşəcək.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَتَرَى ٱلْمَلَٰٓئِكَةَ حَآفِّينَ مِنْ حَوْلِ ٱلْعَرْشِ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْۖ وَقُضِىَ بَيْنَهُم بِٱلْحَقِّ وَقِيلَ ٱلْحَمْدُ لِلَّهِ رَبِّ ٱلْعَٰلَمِينَ ٧٥﴾ [الزُّمَر : ٧٥]

"Sən mələklərin, Ərşi əhatə edərək, Rəbbinə həmd ilə tariflər dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!"– deyiləcəkdir." [13]

---

[11] Buxari 6536, Muslim 2876
[12] Tirmizi 1925
[13] əz-Zumər surəsi, 75-ci ayə